

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 14 (21.424)

*23 yanvar 2016-cı il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 22-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Yohan Şnayder-Amman ilə görüşü olub.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirilib. Siyasi, iqtisadi, enerji, sərmayə qoyuluşu, nəqliyyat sahələrində səmərəli əməkdaşlığın olduğu vurğulanıb. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolundan danışılıb.

* * *

Yanvarın 22-də Davosda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Petro Poroşenko ilə görüşü olub.

* * *

Yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində dünya iqtisadi liderlərinin "2016-cı il üçün mütləq xarakterli tövsiyələr" mövzusunda qeyri-rəsmi toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.



## F.N.Bağırovun Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fariz Nəriman oğlu Bağırov Naxçıvan Muxtar Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 yanvar 2016-cı il*

## Babək rayonunun Xəlilli kəndində məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilmişdir

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının yaşayış məntəqələrində də müasir infrastruktur yaradılır, insanların sosial problemləri həll olunur.

Son illər kəndlərin kompleks abadlaşdırılması bu tədbirlər içərisində xüsusi yer tutur. "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən quruculuq tədbirlərindən Babək rayonunun Xəlilli kəndinə də pay düşmüş, kənddə yeni sosial obyektlər inşa olunmuşdur.

## Yeni məktəb binası müasir tədris imkanlarına malikdir

Yanvarın 22-də Xəlilli kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəb binasının açılışını bildirən lenti kəsmişdir.

Açılış tədbirində məktəbin direktoru Əfqan Vəliyev çıxış edərək demişdir ki, yeni məktəb binası müəllim və şagirdlərin sevincinə səbəb olmuşdur. Yaradılan şərait tədrisin səviyyəsini xeyli yüksəldəcəkdir. Bu şərait pedaqoji kollektivin qarşısında yeni vəzifələr qoyur. Çalışacağıq ki, göstərilən etimadı layiqincə doğruldaq, savadlı və vətənpərvər gənclər yetişdirək.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xəlilli kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Bu gün muxtar respublikanın kəndləri abadlaşır, yeni yollar çəkilir, məktəb binaları, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyaları tikilərək istifadəyə verilir. Həyata keçirilən



olduğunu bildirən Ali Məclisin Sədri kollektivə təşəkkür etmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri Babək rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan 26 şagirdə kompüter hədiyyə etmiş, məktəb binasında yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 144 yerlik məktəb binasında 12 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 elektron lövhəli sinif, şahmat, kompüter və müəllimlər otaqları, kitabxana, bufet və idman zalı vardır. Məktəbin kompüter otağındakı 13 kompüter internetə qoşulmuşdur.

Kitabxanada 1215 dərslik və 1520 bədii ədəbiyyat vardır. Qeyd olunmuşdur ki, Ali Məclis Sədrinin tapşırığına əsasən ümumtəhsil məktəblərində kitabxana işinə xüsusi diqqət yetirilir. Kitabxana fondları yeni ədəbiyyatlarla zənginləşdirilir, şagirdlərin kitabxanalara cəlbi





bu tədbirlər içərisində ən vacibi məktəb tikintisidir. Çünki təhsilə, məktəb işinə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Əgər yaxşı mütəxəssis, müəllim, həkim, əsl vətəndaş hazırlamaq istəyiriksə, ölkəmizin gələcəyini düşünürüksə, onda məktəb işinə xüsusi diqqət yetirməliyik.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə həyata keçirilən tədbirlər içərisində təhsilin inkişafına, məktəb tikintisinə xüsusi diqqət yetirilir, müəllim əməyinə yüksək qiymət verilir. Bu sahədə görülən işlər artıq öz bəhrəsini verir. Belə ki, ümumtəhsil məktəblərini bitirən gənclər ali və orta ixtisas məktəblərinə qəbul olunur, peşə məktəblərində təhsil alır, ixtisaslı kadr kimi yetişərək ölkəmizin inkişafında, həyata keçirilən quruculuq işlərində yaxından iştirak edirlər. Bu da vacib məsələdir. Çünki ölkəmizi gələcəkdə bu gənclər idarə edəcəklər. Əgər ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində və müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə yetişən gənclər Azərbaycanın bugünkü inkişafında iştirak edirlərsə, bu gün yetişən gənclər də bu inkişafı gələcəkdə davam etdirəcəklər.

Ulu öndər Heydər Əliyevin ***"Cəmiyyətdə hər şey məktəbdən, təhsildən başlayır"***, – fikrini xatırladan Ali Məclisin Sədri demişdir ki, cəmiyyətdəki sabitlik, ölkənin tərəqqisi və inkişafı məktəbin fəaliyyətindən, təhsilin səviyyəsindən asılıdır. Bu gün Xəlilli kənd tam orta məktəbində müasir tədris şəraiti yaradılmışdır. Gənclərin savadlı, dünyagörüşlü və vətənpərvər böyüdülməsi üçün yaradılan bu şəraitdən düzgün istifadə olunmalıdır.

Məktəbin nailiyyətlərinin qənaətləndirici diqqət mərkəzində saxlanılır. Məktəb kitabxanaçıları üçün seminarın keçirilməsi də bu baxımdan mühüm əhəmiyyətə malik olmuş, onlara məktəbdə kitabxana işinin təşkili ilə bağlı müvafiq təlimatlar verilmişdir.

Gənclərin vətənpərvərlik hisslərinin gücləndirilməsi və onların hərb sənətinə marağının artırılması vacib şərtdir. Hərbi kabinədə çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisi üçün hərtərəfli şərait yaradılmış, müvafiq əyani vəsaitlər şagirdlərin istifadəsinə verilmişdir.

*Ardı 2-ci səhifədə*





Yanvarın 22-də Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərlinin doğum günüdür. Muxtar respublikada görkəmli rəssamın zəngin irsinin tədqiqi və gənc nəslə təbliğ olunması diqqət mərkəzində saxlanılır. Elektron lövhəli sinfə baxış zamanı məlumat verilmişdir ki, hazırda Bəhruz Kəngərli Muzeyi ilə təhsil müəssisələri arasında distant dərs keçirilir, şagirdlərə görkəmli rəssamın həyat və fəaliyyəti haqqında ətraflı məlumat verilir. Distant dərsi muxtar respublikanın 221 təhsil müəssisəsindən 4 minə yaxın şagird izləmişdir.

Gənc nəslin sağlam həyat tərzinin təmin edilməsində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Muxtar respublikada gənclərin idmana marağının artırılması istiqamətində ardıcıl tədbirlər görülür, məktəblərdə müasir idman zalları istifadəyə verilir. Xəlilli kənd tam orta məktəbinin geniş idman zalı və həyətdə quraşdırılan açıq idman qurğuları da fiziki tərbiyə dərslərinin səmərəli keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri məktəbdə şahmat fənninin tədrisi ilə maraqlanmış, bu idman növünün gənclərin əqli inkişafında və asudə vaxtının səmərəli təşkilindəki əhəmiyyətini qeyd etmişdir.

Sonra məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Məktəblərdə yaradılan şərait ölkəmizin gələcəyinə xidmət edir. Ona görə də müəllimlər şagirdlərə ölkənin gələcəyi kimi baxmalıdırlar. Muxtar respublikanın ümumtəhsil məktəblərində çalışan müəllimlər diaqnostik qiymətləndirmə zamanı yaxşı nəticələr göstərmiş, onların əməkhaqları artırılmışdır. Müəllim əməyinə verilən digər bir qiymət isə məktəblərdə yaradılan müasir tədris şəraitidir. Xəlilli kənd tam orta məktəbi bütün tədris imkanlarına malikdir. Bunun nəticəsidir ki, bu il məktəbdə şagirdlərin sayı artmışdır. Pedaqoji kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirməlidir.

Müəllim Afaq Cəfərova demişdir ki, məktəbin köhnə binası istifadəyə yararsız idi. Lakin dövlətimizin təhsilin inkişafına göstərdiyi qayğının nəticəsi olaraq bu gün hər cür avadanlıqlarla təchiz olunan yeni məktəb binası kollektivin istifadəsinə verilir. Həmçinin dövlətimiz müəllimlərin sosial problemlərinin həllini də diqqət mərkəzində saxlayır. Müəllimlərin əməkhaqlarının artırılması bunun bariz nümunəsidir. Bütün bunlar pedaqoji kollektivin məsuliyyətini artırır. Müəllimlər göstərilən etimadı doğruldacaq, ölkəmiz üçün layiqli vətəndaşlar yetişdirəcəklər.

Məktəbin həyətində geniş abadlıq işləri görülmüş, ağac və gül kolları əkilmişdir.

## Xəlilli Kənd Mərkəzinin açılışı olmuşdur





Muxtar respublikanın kənd yaşayış məntəqələrində insanların rahat yaşayışı üçün zəruri infrastruktur qurulur.

Yanvarın 22-də Xəlilli Kənd Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov mərkəzin açılışını bildirən lenti kəsmiş və binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan mərkəzdə rabitə evi, feldşer-mama, polis sahə və baytarlıq məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, kitabxana, klub və 40 yerlik iclas zalı vardır. Şıxmahmud və Xəlilli kəndlərini əhatə edən baytarlıq məntəqəsində soyuducu qoyulmuş, zəruri dərman vasitələri ehtiyatı yaradılmışdır. Birinci mərtəbədəki kitabxanada 8442 kitab vardır.

Rabitə evində 384 yerlik yeni nəsil ATS quraşdırılmış, abonentlər keyfiyyətli rabitə xidməti ilə təmin olunmuşlar. Yeni nəsil ATS kənddə “Evədək optika” layihəsinin həyata keçirilməsinə, sakinlərə İP televiziya, sürətli internet və digər müasir rabitə xidmətlərinin göstərilməsinə imkan verəcəkdir. Həmçinin burada yeni poçt bölməsi də fəaliyyətə başlamışdır.

Muxtar respublikada səhiyyənin inkişafına xüsusi diqqət yetirilir, insanların sağlamlığı etibarlı qorunur. Yaşayış məntəqələrində müasir səhiyyə ocaqlarının tikilib istifadəyə verilməsi bu tədbirlərin davamıdır. Lazımi avadanlıqlarla təchiz olunan Xəlilli kənd feldşer-mama məntəqəsi müdir, mama və manipulyasiya otaqlarından ibarətdir.



## Xidmət mərkəzi sakinlərin rahatlığını təmin edəcəkdir




Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xəlillidə yeni xidmət mərkəzinin də açılışını etmişdir.

5 nəfərin daimi işlə təmin olunduğu xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Bildirilmişdir ki, bu gün muxtar respublikada sağlamlıq imkanları məhdud gənclərin məşğulluq probleminin həlli diqqət mərkəzində saxlanılır, onlar peşə məktəblərinə cəlb olunur. Xidmət mərkəzində çalışan bərbər də bu kateqoriyadan olan gənclərdəndir.

Sonra Ali Məclisin Sədri kənd sakinləri ilə görüşmüşdür.

Ali Məclisin Sədri demişdir: Xəlilli kəndi muxtar respublikanın müasir kəndlərinin sırasına qoşulmuşdur. Kənddə geniş quruculuq işləri aparılmışdır. Bu işlərin davamı olaraq Şıxmahmud və Xəlilli kəndlərində su-kanalizasiya layihəsi də həyata keçiriləcək, kənd yollarına asfalt örtük salınacaqdır. Həyata keçirilən kompleks quruculuq işləri kəndlə şəhər arasındakı fərqin azalmasına, sakinlərin həyat şəraitinin yaxşılaşmasına və məskunlaşmanın artmasına səbəb olmuşdur. Bütün bunlar ölkəmizdəki sabitliyin, dövlət-xalq birliyinin, həyata keçirilən davamlı sosial-iqtisadi islahatların nəticəsində mümkün olmuşdur.

Kənd sakini Zahid Tağıyev minnətdarlıq edərək demişdir: Bu gün Xəlilli kəndində müasir məktəb binası, kənd və xidmət mərkəzləri, feldşer-mama məntəqəsi, rabitə evi sakinlərin istifadəsinə verilir. Xüsusilə yeni məktəb binasının tikilməsi sakinlərin böyük sevincinə səbəb olmuşdur. Təhsilə bu qədər diqqətlə yanaşılması hər kəsdə gələcəyimizə böyük ümidlər yaradır.

*Ardı 3-cü səhifədə*



Xəlillidə əhalinin rifahı naminə bütün işlər görülmüş, mənzillər daimi qaz, elektrik enerjisi, televiziya, rabitə və internet xidmətləri ilə təmin olunmuşdur. Ölkə Prezidentinin sərəncamları ilə əməkhaqlarımız, pensiyalarımız artmışdır. Həmçinin dövlətimizin kənd təsərrüfatı ilə məşğul olanlara dəstək göstərməsi, güzəştli kreditlərin verilməsi, texnikalarla təminat əkinçiliyə marağı daha da artırmışdır. İnsanların artıq heç bir problemi yoxdur, hər kəs öz təsərrüfatı ilə məşğul olur, kəndində rahat yaşayır. Bu inkişaf Naxçıvanın bütün kəndlərini əhatə etmişdir. Göstərilən diqqət və qayğıya, yaradılan şəraitə cavab olaraq kənddə əkinçiliyi, heyvandarlığı inkişaf etdirəcək, bundan sonra da ölkəmizin inkişafına töhfələr verəcəyik.

* * *

Xəlilli kəndinin yolları abadlaşdırılmış, 1350 metr uzunluğunda beton kanal çəkilmiş, 67 su keçidi qoyulmuşdur. Rabitə, elektrik və qaz xətləri də yenilənmiş, 1200 metrlik fiber-optik, 3 kilometr uzunluğunda elektrik və 450 metr uzunluğunda qaz xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## *“Ən fəal işəgötürən”* nominasiyası üzrə müsabiqənin qaliblərinə mükafatlar təqdim olunub



***Yanvarın 22-də Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirliklərinin və Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən “Ən fəal işəgötürən” nominasiyası üzrə müsabiqənin qaliblərinə mükafatların təqdimetmə mərasimi olub.***

Tədbiri Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov açaraq muxtar respublikada sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən danışıb. Qeyd olunub ki, 2014-2015-ci illərdə muxtar respublikada 39 hüquqi şəxs dövlət qeydiyyatına, 5157 fiziki şəxs isə sahibkarlıq uçotuna alınıb. Bəhs olunan dövrdə muxtar respublikada fəaliyyət göstərən banklar və digər kredit təşkilatları tərəfindən sahibkarlara 82 milyon 286 min manat həcmində güzəştli şərtlərlə kreditlər verilib. Həyata keçirilən tədbirlər nəticəsində 6364 yeni iş yeri açılıb. Bununla yanaşı, muxtar respublika ərazisində şəxsi vəsaitlər hesabına kiçik və orta sahibkarlığın inkişafı istiqamətində 15 sənaye, 9 kənd təsərrüfatı və 8 xidmət sahəsi yaradılıb. Naxçıvan Muxtar Respublikası Sahibkarlığa Kömək Fondu tərəfindən maliyyələşdirilmiş sahələr də daxil olmaqla, ümumilikdə, 732 yeni iş yeri açılıb. Fond tərəfindən maliyyələşdirilmiş digər layihələrin icrası başa çatdırıldıqdan sonra daha 595 yeni iş yeri açılacaqdır.

Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov bildirib ki, muxtar respublikada dinamik inkişafın ən mühüm göstəricilərindən biri də məşğulluğun inkişaf səviyyəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın uğurlu icrası işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşmasına, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb. Ötən iki il ərzində 5537 nəfər müəssisələrdə mövcud olan vakansiyalar üzrə işlə təmin edilib, sosial müdafiəyə ehtiyacı olan 158 nəfər kvota yerlərinə, 627 nəfər sosial əhəmiyyətli ictimai işlərə göndərilib. Eyni zamanda məşğulluq tədbirləri ilə yanaşı, işçilərin əmək hüquqlarının müdafiəsi və əməyin mühafizəsi istiqamətində də müxtəlif tədbirlər həyata keçirilib.

Sahibkarlar Konfederasiyasının nümayəndəsi Azər Cəfərov çıxışında muxtar respublikanın iqtisadi tərəqqisində sahibkarlığın əhəmiyyətindən, sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün məsləhət xidmətinin göstərilməsindən bəhs edib. Bildirilib ki, İqtisadiyyat Nazirliyində yaradılan “Operativ əlaqə sistemi” vasitəsilə 117 sahibkarlıq subyektinə mütəmadi olaraq məsləhət, informasiya xidmətləri göstərilib. Həmçinin Naxçıvan Biznes Mərkəzində sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün təkmilləşdirmə kursları təşkil edilib, sahibkarlıq subyektlərinə şifahi konsaltinq xidməti göstərilib, 17 müəssisəyə mütəmadi olaraq 72 halda iqtisadi yönümlü məlumatlar çatdırılıb.

Qeyd olunub ki, muxtar respublikada əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə qəbul edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” önümüzdəki 5 il ərzində məşğulluq siyasətinin əsaslarını müəyyən edir.

Vurğulanıb ki, ötən ilin yanvar ayında “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq 2014-cü ilin yekununa görə “Ən fəal işəgötürən” nominasiyası üzrə müsabiqə keçirilib və qaliblər mükafatlandırılıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq 2015-ci ilin yekununa görə Naxçıvan Biznes Mərkəzində növbəti müsabiqə keçirilib. “Ən fəal işəgötürən” nominasiyası üzrə müsabiqənin qaliblərini Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müvafiq əmri ilə yaradılan Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirliklərinin və Sahibkarlar Konfederasiyasının nümayəndələrindən ibarət mükafat komissiyası müəyyən edib.

Sonra komissiyanın sədri, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev müsabiqənin qaliblərini elan edib. Bildirilib ki, 2015-ci ilin yekununa görə yeni istehsal sahəsi yaratmaqla işaxtaranların daimi işlə təmin olunmasında iştirak edən hüquqi və fiziki şəxslərin fəaliyyətləri müqayisəli qiymətləndirilərək Uzunoba Su Anbarı ətrafında fəaliyyət göstərən sahibkar Azər Nəsirova məxsus “Panaroma” iaşə obyekti birinci, Babək rayonunun Nehrəm kəndində fəaliyyət göstərən sahibkar Rafiq Əliyevə məxsus süd məhsullarının emalı müəssisəsi ikinci və Culfa rayonunun Dizə kəndində fəaliyyət göstərən sahibkar Mahmud İbrahimova məxsus heyvandarlıq təsərrüfatı üçüncü yerlərə layiq görülüblər.

Sonra qaliblərə diplom və plaketlər təqdim olunub.

Sahibkarlar adından çıxış edən Azər Nəsirov onların fəaliyyətlərinə yaradılan hərtərəfli şəraitə görə minnətdarlığını bildirib, gələcəkdə də əhalinin səmərəli məşğulluğunun təmin olunması istiqamətində fəallıq nümayiş etdirəcəklərini qeyd edib.

**Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 58 dövlət orqanı nümayəndəsinin iştirakı ilə “Naxçıvan Muxtar Respublikasının Dövlət Qulluqçularının Reyestrinin aparılması” mövzusunda seminar keçirilib.***

## Dövlət Qulluqçularının Reyestrinin aparılması qaydaları ilə bağlı seminar



Seminarda komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, son illər muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sisteminin formalaşdırılması istiqamətində mühüm addımlar atılıb. Dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, dövlət idarəetməsində informasiya texnologiyalarının tətbiqi daim diqqət mərkəzində saxlanılıb. Dövlət Qulluqçularının Reyestrinin aparılması üçün proqram təminatının hazırlanaraq istifadəyə verilməsi dövlət orqanlarının mövcud kadr potensialından səmərəli istifadə edilməsini, habelə dövlət qulluğuna kadrların seçilməsi işinin daha sürətli və keyfiyyətli həyata keçirilməsini təmin edib. Reyestrin yaradılmasında məqsəd dövlət qulluqçuları haqqında məlumatların toplanılması, bu məlumatların yenilənməsi və təhlil edilməsidir. Bütün bu görülən işlər isə dövlət qulluqçularının qulluqda yüksəlməsi, yerləşdirilməsi, ixtisas dərəcələrinin artırılması və digər məsələlərin həllində məlumat bazasından maksimum şəkildə yararlanılmasına, zəruri hallarda müvafiq dövlət orqanlarının həmin məlumatlarla təmin olunmasına geniş imkanlar yaradır.

Komissiya sədri bildirib ki, bəzi hallarda reyestrin aparılması zamanı bir sıra nöqsanlara yol verilir. Bu da reyestrdən istifadənin səmərəliliyini azaldır. Seminarın keçirilməsində məqsəd bu nöqsanların ortaya çıxmasının səbəbləri və onların aradan qaldırılması yollarının iştirakçıların diqqətinə çatdırılmasıdır.

Seminarda komissiyanın əməkdaşı Mahir Abbasov slayd vasitəsilə reyestrin düzgün aparılma qaydaları haqda iştirakçılara məlumat verib.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Səbuhi HÜSEYNOV**

## Tikintidə təhlükəsizliyə nəzarət gücləndirilib



Tikinti materiallarının dövlət standartlarının tələblərinə cavab verməsi, həmin sahə üzrə dövlət nəzarətinin həyata keçirilməsi, istehsalat müəssisələrində texniki və yanğın təhlükəsizliyinin təmin olunması ilə bağlı Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi tərəfindən maarifləndirici tədbir keçirilib. Aidiyyəti tikinti materialları istehsalı müəssisələri nümayəndələrinin iştirak etdiyi tədbiri idarənin rəisi Vüqar Kazımov açıb.

Bildirilib ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, tikinti sahəsinin də sürətlə inkişaf etdiyi bir dövrdə bu sahədə təhlükəsizliyin təmin olunması istiqamətində qanunvericilik bazası təkmilləşdirilib, bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib.

Qeyd olunub ki, ötən müddət ərzində idarə tərəfindən muxtar respublika ərazisində tikintisi başa çatdırılmış və davam etməkdə olan 614 sayda bina və qurğunun qeydiyyatı aparılıb, mühəndis-geoloji işlərin aparılması ilə bağlı 116 obyekt ərazisindən quyu və şurf qazma üsulu ilə götürülən qrunt nümunələri analizdən keçirilib, müvafiq hesabatlar hazırlanıb. Tikintidə istifadə olunan materialların dövlət standartlarının tələblərinə cavab verməsinin yoxlanılması məqsədilə idarənin Mühəndis-geoloji, sement və beton laboratoriyasında 1509 sayda sınaq keçirilib. Keçirilən sınaqlar zamanı 55 sınaq nəticəsinin standartların tələblərinə uyğun olmadığı müəyyən edilib. Aparılmış tədbirlər nəticəsində çatışmazlıqların aradan qaldırılmasına nail olunub. Tikinti dövründə istifadə olunan material və konstruksiyaların laboratoriya şəraitində keyfiyyətinin yoxlanılması ilə yanaşı, səyyar üsulla tikinti obyektlərində dəmir-beton konstruksiyalarda betonun naturada möhkəmlik göstəricisi 1479 halda yoxlanılıb. 230 obyektin tikintisi ilə bağlı layihə-smeta sənədləri ekspertizadan keçirilib və işçi layihələrə müvafiq rəylər verilib. Peşə sahələrinə aid işləri yerinə yetirən şəxslərin müvafiq peşəkarlıq sertifikatına malik olmaları yoxlanılıb.

Sonra çıxışlar olub, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Sonda Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsinin rəisi Vüqar Kazımov “Tikintiyə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları”nın mahiyyəti və qarşıya qoyulan vəzifələrin icrası istiqamətində görüləcək işlər haqqında məlumat verib.

**Kərəm HƏSƏNOV**

## Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının konfransı keçirilmişdir



*Yanvarın 22-də Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının konfransı keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransın gündəliyində duran məsələlər barədə məlumat vermişdir. Bildirilmişdir ki, konfransın gedişi zamanı əvvəlcə Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının hesabatı dinləniləcək, daha sonra təşkilatın yeni İdarə Heyətinin üzvləri və qurumun sədri seçiləcək, Nəzarət-Təftiş Komissiyasının tərkibi müəyyənləşəcəkdir.

Konfransın gündəliyi yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri Şəmsəddin Qasımov çıxış edərək bildirmişdir ki, bu gün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatına böyük qayğı göstərilir, bəstəkar və musiqişünasların yaradıcılığının inkişafı üçün hər cür şərait yaradılır. 2000-ci ilin may ayından yeni tələb və tapşırıqlarla fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı artıq 15 ildir ki, müntəzəm olaraq muxtar respublikanın ictimai-mədəni həyatında yaxından iştirak edir.

Qeyd olunmuşdur ki, hesabat dövründə təşkilat üzvlərinin əsərləri ölkəmizdə keçirilən mötəbər tədbirlərdə səsləndirilmiş və böyük rəğbətlə qarşılanmışdır. Belə ki, 30 oktyabr – 5 noyabr 2014-cü ildə keçirilən Azərbaycan Bəstəkarlar İttifaqının musiqi festivalında Naxçıvan bəstəkarlarının əsərləri də səsləndirilmişdir.

İdarə Heyətinin yeni tərkibi seçildikdən sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üzvü Günay Məmmədova təşkilatın sədri vəzifəsinə tanınmış bəstəkar Yaşar Xəlilovun namizədliyini irəli sürmüşdür. Təklif yekdilliklə dəstəklənmişdir.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının yeni sədri Yaşar Xəlilov ona göstərilən etimada görə təşkilat üzvlərinə minnətdarlığını bildirmiş, etimadı doğrultmaq üçün səylə çalışacağını qeyd etmişdir.

Konfransın qərar layihəsi oxunmuş və yekdilliklə qəbul olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov konfransda çıxış edərək Bəstəkarlar Təşkilatının ötən müddət ərzində fəaliyyətində olan nöqsanlardan danışmışdır. Qeyd etmişdir ki, təşkilat gələcəkdə buraxılan nöqsanları aradan qaldırmalı, muxtar respublikada musiqi mədəniyyətinin inkişafı və təbliği istiqamətində fəaliyyətini gücləndirməlidir. Naxçıvanı vəsf edən yeni əsərlər yaradılmalı, istedadlı gənclərin üzə çıxarılması məqsədilə müsabiqələr təşkil edilməli, xalq rəqsləri və yallıların aşkar edilib nota köçürülməsi, hesabat konsertlərinin, tanınmış bəstəkar və musiqiçilərin xatirə gecələrinin, ustad dərslərinin keçirilməsi təmin olunmalıdır.

## Məktəblərdə kitabxana işinin təşkili müzakirə edilib

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində ümumtəhsil məktəblərində kitabxana işinin təşkilinə həsr edilmiş seminar-müşavirə keçirilib. Məktəb kitabxanaçılarının iştirakı ilə keçirilən seminar-müşavirəni giriş sözü ilə təhsil naziri Piri Nağıyev açaraq muxtar respublikamızda təhsilin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışıb.*



Qeyd olunub ki, həyata keçirilən tədbirlərdən biri də məktəblərdə yaradılan zəngin kitabxanalardır. Kitabxanaların hamısı bədii ədəbiyyat və pulsuz dərsliklərlə təmin edilib. Kitabxanalara 2005-ci ildən indiyədək 2 milyon 152 min 243 nüsxə dərslik verilib ki, onların da 132 min 761 nüsxəsi 2015-ci ilin avqust ayında gətirilib. Bundan başqa, məktəb kitabxanalarına 627 min 643 nüsxə latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyat, jurnal və məcmuə verilib. Vurğulanıb ki, bu gün hər bir məktəb kitabxanasından səmərəli istifadə edilməli, şagirdlərin təlim-tərbiyəsində bədii ədəbiyyatlardan istifadə, mütaliə mədəniyyətinin inkişaf etdirilməsi diqqətdə saxlanılmalıdır. Bu işdə məktəb kitabxanaçılarının üzərinə mühüm vəzifələr düşür.

Seminar-müşavirədə M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru Aytəkin Qəhrəmanova, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin direktoru Şahin Əliyarov, Culfa Rayon Təhsil Şöbəsinin metodiki kabinetinin direktoru Qabil Abbasov, Heydər Əliyev adına tam orta məktəbin kitabxana müdiri Elsevər Həsənov çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, elmi-texniki tərəqqinin sürətli inkişafı ilə əlaqədar insanların məşğulluq və maraq dairəsi, ilbəil təkmilləşən texniki informasiya vasitələri ilə məlumatlanmaq imkanları genişlənsə də, mütaliə inkişafetdirici amillər arasında öncül mövqeyini saxlamaqdadır. Bununla belə, aparılan müşahidələr və təhlillər göstərir ki, son zamanlar ümumtəhsil məktəblərində şagirdlərin mütaliəyə istiqamətləndirilməsi, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması üzrə zəruri tədbirlərin həyata keçirilməsi əvvəlki dövrlərlə müqayisədə zəifləyib. Bununla əlaqədar şagirdlərin mütaliəsi işinin təşkilindəki təcrübədə sınaqdan çıxmış ənənələri bərpa etmək, onların mütaliəyə həvəsini daha da gücləndirmək və mütaliə vərdişlərini inkişaf etdirmək təhsil sahəsində prioritet vəzifələrdən biridir.

Sonda Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov ümumtəhsil məktəbləri kitabxanalarında elektron vəsaitlərdən istifadə ilə əlaqədar geniş məlumat verib.

Seminar-müşavirədə rayon (şəhər) Təhsil şöbələrinin metodiki kabinetlərinə kitabxana işinin təşkili ilə bağlı lazımi metodiki vəsaitlər təqdim edilib.

✍ **Sara ƏZİMOVA**

*Yanvarın 22-də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin birgə təşkilatçılığı ilə Bəhruz Kəngərli Muzeyində Azərbaycanın milli rəsm sənətinin görkəmli simalarından biri olan, ilk realist fırça ustası Bəhruz Kəngərlinin anadan olmasının 124-cü ildönümü münasibətilə tədbir keçirildi.*

## Görkəmli rəssam Bəhruz Kəngərlinin anadan olmasının 124-cü ildönümü qeyd olunub

Əvvəlcə naxçıvanlı rəssamlar və sənətsevərlər Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Naxçıvan şəhərindəki binasından başlayaraq Bəhruz Kəngərlinin şəhərdəki məzarınadək yürüş etdilər, ilk realist fırça ustasının məzarüstü abidəsinin önünə gül dəstələri düzdülər.



Bəhruz Kəngərli Muzeyində davam etdirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirdi ki, qısa həyat yaşamasına baxmayaraq, rəssam yaradıcılığı boyu çox zəngin və rəngarəng bir irs qoyub. Onun istər portret, istər mənzərə, istərsə də natürmort janrlarında yaratdığı çoxsaylı əsərləri rəssamın son dərəcə həssas və dərin düşüncə tərzindən xəbər verir. Sənətkarın 2 mindən çox əsərinin mövcudluğu məlumdur.

Natəvan Qədimova vurğuladı ki, günümüzdə muxtar respublikamızda görkəmli şəxsiyyətlərin xatirələrinin əbədiləşdirilməsi ənənə halını alıb. Həmyerlimiz olan Bəhruz Kəngərlinin də yaradıcılıq irsi dövlətimiz tərəfindən qayğı ilə əhatə olunaraq qorunmaqdadır. 2002-ci ilin iyununda doğma Naxçıvanımızda ümummilli lider Heydər Əliyevin iştirakı ilə Bəhruz Kəngərli Muzeyinin açılışı olub. Ulu öndər rəssamın yaradıcılığına böyük dəyər verib. Naxçıvanda fəaliyyət göstərən Rəssamlar Birliyinin sərgi salonuna Bəhruz Kəngərlinin adı verilib. 2001-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" və elə həmin il Bəhruz Kəngərli Muzeyinin yaradılması haqqında sərəncamları bu irsə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Qeyd olundu ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı, həmin sərəncama əsasən muxtar respublika Ali Məclisi Sədrinin sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planı, Bəhruz Kəngərli Muzeyinin binasının əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilməsi, Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının yaradılması rəssamın yaradıcılıq irsinin təbliği üçün geniş imkanlar yaradıb. Onun Azərbaycan Milli İncəsənət Muzeyində qorunub saxlanan 195 əsərinin surəti çıxarılaraq muzeyə gətirilib. İlk dəfə olaraq onun əsərlərindən ibarət albom-kataloq hazırlanıb, rəssamın məzarüstü abidəsi abadlaşdırılıb, poçt markası buraxılıb, onun adını daşıyan sərgi salonunda əsərlərindən ibarət sərgi təşkil edilib və digər işlər görülüb.

"Düşünürəm ki, rəssamın yaradıcılığı öz mahiyyəti etibarı ilə bu gün müasir gəncliyimiz üçün də nümunədir", – deyən mədəniyyət və turizm naziri bildirdi ki, Bəhruz Kəngərli irsi daim yaşayacaq, onun bir-birindən maraqlı əsərləri öz mahiyyəti və məzmunu ilə insanların mənəvi aləminə təsir edəcəkdir.

"Azərbaycan rəssamlıq məktəbində Bəhruz Kəngərli yaradıcılığının rolu" mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva dedi ki, qısa, lakin mənalı ömür yaşamış Bəhruz Kəngərli Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla həm də onu yeni ictimai məzmun, yeni janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirmiş görkəmli sənətkar olub. O, vaxtilə Cənubi Qafqazın inzibati və mədəni mərkəzlərindən biri olan Tiflis şəhərində təşkil olunmuş "İncəsənəti təşviq cəmiyyəti" və ya digər mənbələrdəki adı ilə desək, "Rəssamları həvəsləndirən cəmiyyət"in nəzdindəki rəssamlıq məktəbini bitirən ilk azərbaycanlıdır. Yüksək istedad sahibi olan Bəhruz Kəngərli Azərbaycan incəsənətində realizmin əsasını qoyan və öz yaradıcılığında qabaqcıl ideyaları əks etdirən sənətkarlardan biri olub. Rəssam sənətkarlığın əsas vasitələri olan rəsm, kompozisiya, rəng bacarığına böyük diqqət yetirib. Təsviri incəsənətin müxtəlif növlərində yaradıcılıqla məşğul olan Bəhruz Kəngərli həm boyakarlıq, qrafika, həm də teatr rəssamlığı sahəsində böyük müvəffəqiyyətlər qazanıb.

Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev "Bəhruz Kəngərli yaradıcılığında "Qaçqınlar" silsiləsi" mövzusundakı çıxışında qeyd etdi ki, rəssam 1918-1920-ci illərdə erməni daşnaklarının Azərbaycanda törətdikləri faciələri təsvir edən, öz dədə-baba torpaqlarından zorla qovulmuş və Naxçıvana pənah gətirmiş azərbaycanlı qaçqınların portretlərindən ibarət silsilə əsərlər yaradıb. Bu silsilədən olan "Qaçqınlar", "Qaçqın qız", "Qaçqın oğlan", "Qaçqın qadın", "Yurdsuz ailə", "Ayaqyalın qaçqın oğlan" və sair onlarla qaçqının portretləri təkcə sənətkarlıq səviyyəsinə görə deyil, tarixi sənəd kimi də dəyərlidir. O, portret ustası kimi yaratdığı personajların daxili psixoloji aləmini açıb göstərə bilib. Rəssam təsvir etdiyi qaçqın uşaqların hər birinin simasında didərgin düşdükləri ata-baba ocaqlarının həsrətini, keçirdikləri hiss və həyəcanları, gözlərinə qonmuş qüssə və kədəri özünəməxsus ustalıqla əks etdirməklə yanaşı, həm də onların böyük mədəniyyətin daşıyıcısı olduqlarını diqqətə çatdırmağa çalışıb.

Bəhruz Kəngərli Muzeyinin direktoru Səbinə Əlincəli və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin baş fond mühafizi, sənətşünas Nizami Alıyev çıxışlarında rəssamın həyat və yaradıcılığından ətraflı söhbət açdılar. Bildirildi ki, görkəmli rəssamın əsərlərində təbiət, tarixi abidələr və vətənpərvərlik mövzusu əsas yerlərdən birini tutur. O, dövrünün görkəmli şəxslərinin rəsmlərini çəkib, portret janrında dəyərli əsərlər yaradıb.

Sonda tədbir iştirakçıları muzeyin eksponatları ilə tanış oldular.

✍ **Rauf ƏLİYEV**


### Naxçıvan Qızlar Liseyi

*2016-cı il üçün kotirovka elan edir*

*Ərzaq məhsullarının satın alınması.*

Kotirovka 5 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 8 fevral 2016-cı il tarixdə saat $14^{00}$-da Naxçıvan Qızlar Liseyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Yusif Xəlilov***
***Telefon: 545-03-47***
***Ünvan: Naxçıvan şəhəri, İdris Məmmədov küçəsi***

### Naxçıvan Şəhər Peşə Liseyi

*2016-cı il üçün kotirovka elan edir*

*1. Ərzaq məhsullarının satın alınması.*

*2. Dəftərxana ləvazimatlarının satın alınması.*

Kotirovka 4 fevral 2016-cı il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki-iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 5 fevral 2016-cı il tarixdə saat $16^{00}$-da Naxçıvan Şəhər Peşə Liseyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Həsən Abbasov***
***Telefon: 545-25-80***
***Ünvan: Naxçıvan şəhəri, Zərifə Əliyeva küçəsi***

### İtmişdir

Culfa rayonunun Qazançı kəndində yaşamış Hüseynova Simuzər Əlimərdan qızının adına olan JN-128$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Hacıyev Nuran Zahid oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhərinin Qaraçuq kənd sakini Abbasov Elxan Abbas oğlunun adına olan JN-371$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, ev 42$^{A}$-da yaşayan Səttarov Əbülfəz Eldar oğlunun adına olan evin MH-0022390 seriya nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 59